# Fərman Xəlilov - 70

## Azərbaycan ədəbiyytatşünaslığına mühüm töhfələr vermiş alim



Azərbaycan Yazıçılar Birliyinin üzvü, filologiya elmləri doktoruFərmanXəlilov Azərbaycan ədəbiyyatşünaslığının və ictimai fikrinin inkişafında xüsusi yeri olan, ədəbiyyatşünaslıq və mətnşünaslıq istiqamətində apardığı tədqiqatları ilə elmimizə sanballı töhfələr bəxş edən görkəmli alimlərimizdəndir. Azərbaycan filoloji fikrinin ən fəal, aparıcı simalarından birikimi Azərbaycan ədəbiyyatının bir sıra mühüm problemlərini əsl peşəkarlıqla tədqiq edən, xüsusilə də möcüzşünas alim kimi tanınan alimin bu yaxınlarda 70 yaşı tamam olur.

Fərman Yunis oğlu Xəlilov 1952-ci il martın 31-də Naxçıvan şəhərində müəllim ailəsində anadan olub. 1969-1973-cü illərdə Azərbaycan Pedaqoji İnstitutu Naxçıvan filialının Azərbaycan dili və ədəbiyyatı fakültəsində təhsil alıb. 1975-ci ildə Naxçıvan şəhərindəki H.Cavid adına 5 nömrəli orta məktəbdə Azərbaycan dili və ədəbiyyatı müəllimi kimi fəaliyyətə başlayıb. 1992-2004-cü illər ərzində Naxçıvan Türk Liseyində milli dil və ədəbiyyatımızı tədris edən F.Xəlilov həmin illərdə Naxçıvan Muxtar Respublikasında test üsulu ilə sınaq imtahanlarının təşkili və keçirilməsində də fəal iştirak edib. Pedaqoji fəaliyyətlə bərabər elmə olan yüksək sevgisi və marağı onu 1977-ci ildə Nizami adına Ədəbiyyat İnstitutunda akademik Mirzə İbrahimovun rəhbərliyi ilə "Mirzə Əli Möcüzün yaradıcılıq yolu" mövzusunda namizədlik dissertasiyası üzərində işləməyə sövq edir. 1982-ci ildə namizədlik dissertasiyasını uğurla müdafiə edən F.Xəlilovun tədqiqat işini yüksək dəyərləndirən akademik M.İbrahimov yazır: "Fərman Xəlilov M.Ə.Möcüzün əsərlərinin bədii xüsusiyyətləri ilə yanaşı, dərin proqressiv ictimai məzmununu da tədqiq etmiş, onların feodal geriliyinə, fanatizmə və cəhalətə ağır zərbə endirdiyini açıb göstərmişdir. O, Azərbaycan ədəbiyyatşünaslığında ilk dəfə olaraq Möcüzün həyatının İstanbul dövrünü tədqiq etmiş, klassik Azərbaycan ədəbiyyatı və folkloru ilə əlaqələrini müəyyənləşdirmişdir". Sonralar da bu istiqamətdə araşdırmalarını davam etdirən alim "M.Ə.Möcüz. Biblioqrafiya", "Mirzə Əli Möcüzün əlyazmaları", "Cənubi Azərbaycan şairi Mirzə Əli Möcüz" kitabları, 2011-ci ildə isə "Mirzə Əli Möcüz: mühiti, müasirləri və ədəbi irsi" mövzusunda doktorluq dissertasiyası ilə bu mövzunun geniş və əhatəli tədqiqinə nail olmuşdur. Cənubi Azərbaycan şairi Mirzə Əli Möcüz irsinin hərtərəfli tədqiqi sayəsində möcüzşünas alim kimi dəyərləndirilən F.Xəlilovun çoxsaylı yazıları da bu istiqamətdədir.Onun "Molla Nəsrəddin" ədəbi məktəbi və Möcüz", "Doktor Məhəmməd Tağı Zehtabinin Mirzə Əli Möcüz haqqında araşdırmaları", "Məhəmmədhüseyn Şəhriyarın Mirzə Əli Möcüzün ədəbi irsinə münasibəti və yaradıcılığında onun ənənələrindən bəhrələnməsi", "Cənubi azərbaycanlı müasirləri Mirzə Əli Möcüz haqqında", "Mirzə Əli Möcüzün Cənubi Azərbaycanda tədqiqinə dair", "Mirzə Əli Möcüzün ailə mühiti və təhsili", "Mirzə Əli Möcüzün "Tərcümeyi-hal"ının mətni ilə bağlı bəzi təhriflər və həqiqətlər", "Mirzə Əli Möcüzün həyatının Şəbüstər mərhələsi (1906-1920)", "Mirzə Əli Möcüzün yazdığı son məktublarından biri haqqında", "Cənubi Azərbaycan şairi Mirzə Əli Möcüzün ifşa üsulları və tənqid hədəfləri" və başqa yazılarında Möcüzün həyatı, ədəbi irsi müxtəlif aspektlərdən araşdırılmış və əhəmiyyətli elmi nəticələr əldə edilmişdir. Alim müxtəlif jurnallarda dərc etdirdiyiməqalələri ilə yanaşı, mətbuatda da Cənubi Azərbaycan mövzusunda yazılarla çıxış etmişdir. "Məşrutə dövrü ədəbiyyatı", "Qiymətli antologiya", "Nəşri gözlənilən kitab", "Təbriz görüşləri", "M.Ə.Möcüzün yeni Təbriz nəşrləri" kimi yazıları bu qəbildəndir.Alim 1983-cü il Bakıda nəşr olunan "Cənubi Azərbaycan antologiyası"nın ikinci cildinin tərtibçilərindən biridir. F.Xəlilov, həmçinin İran İslam Respublikasında dəfələrlə səfərdə olmuş, ədəbi-mədəni və elmi əlaqələrimizin inkişafında da müstəsna xidmət göstərmiş, Naxçıvan televiziyasında Cənubi Azərbaycan tamaşaçıları üçün nəzərdə tutulan "Ayrılıq" və "Axtarış" verilişlərinə İrandan göndərilən məktubları tərcümə etməklə bərabər, bu verilişin fəal iştirakçılarından biri olmuşdur. Mətbuatda, elmi toplu və jurnallarda Cənubi Azərbaycanın Naxçıvan ədəbi mühiti üçün yeni olan bir çox nümayəndələri haqqında məqalələrlə çıxış etmiş, Azərbaycan klassiklərinin bir çoxunun kitablarını Təbriz Mərkəzi Kitabxanasına hədiyyə etmişdir. Cənubi Azərbaycanın Naxçıvanla ədəbi-mədəni, elmi əlaqələrinin bu gün də davam etdirilməsində alimin xidmətləri böyükdür.

F.Xəlilovun Naxçıvanda ədəbiyyat, incəsənət və maarif xadimlərinin tanıdılmasında, bölgənin tarixi, maddi-mədəniyyət abidələri və etnoqrafiyasının öyrənilməsi işinin təməli hesab olunan Naxçıvanı Tədqiq və Tətəbbə Cəmiyyətinin fəaliyyəti haqqında ilk dəfə arxiv sənədlərininüzə çıxarılması və cəmiyyətə təqdim olunmasında da mühüm xidmətləri var. 2005-ci ildə çap olunan, alimin bu sahədəki araşdırmalarını əhatə edən "Naxçıvanı öyrənən elmi cəmiyyət" adlı kitab Naxçıvan Muxtar Respublikasının yaxın tarixi keçmişini özündə əks etdirən dəyərli araşdırmadır. Həmçinin alimin təşəbbüsü və fəal iştirakı ilə Naxçıvan MR Dövlət Arxivində yerli ədəbiyyat, incəsənət və maarif xadimlərinin bir çoxunun şəxsi fondu yaradılmış, müxtəlif arxiv və kitabxanalardan əldə olunan nadir sənədlər, fotoşəkillər, məktublar, əlyazmalar, xüsusilə də M.Ə.Möcüzün həyat və fəaliyyəti ilə bağlı zəngin tədqiqat materialları alimin həmin arxivdə yaradılan şəxsi fonduna daxil edilmişdir. Alimin elmi mənbələr, arxiv materialları əsasında qələmə aldığı "Naxçıvan teatrı", "Maarif fədaisi: Həsən bəy Qazıyev", "Naxçıvan ədəbi mühitinin yetirməsi: Seyid Səbri", 3 cildlik "Naxçıvan elmi, ədəbi və mədəni mühiti: tədqiqlər" monoqrafiyaları onun Naxçıvanın ədəbiyyat, mədəniyyət, maarif xadimlərinin tanıdılması istiqamətindəki yorulmaz fəaliyyətinin bariz nümunəsidir. Onun "Şərq qapısı" qəzetinə həsr olunan "Şərq qapısı" qəzetinin nəşri tarixinin ilk mərhələsi və yeni ədəbi mühitin formalaşmasında rolu" adlı monoqrafiyasında isəqəzetlə bağlı indiyədək tədqiqatdan kənarda qalan bir sıra məsələlərin dəqiq elmi faktlar əsasında tədqiqinə nail olunmuşdur.

F.Xəlilov 2013-cü ildən AMEA Naxçıvan Bölməsində fəaliyyət göstərir.2013-2016-cı illər ərzində bölmənin İncəsənət, Dil və Ədəbiyyat İnstitutunda Ədəbiyyatşünaslıq şöbəsinə rəhbərlik edən alim 2016-cı ildən həmin bölmənin Əlyazmalar Fondunun baş direktorudur. Onun rəhbərliyi ilə Naxçıvanın tarix və mədəniyyətinə aid yeni məlumatların əldə olunması və təbliği istiqamətindəNaxçıvanda qədim əlyazma və çap kitabları toplanılır, sistemləşdirilir, kataloqlaşdırılır və elmi dövriyyəyə cəlb olunur. Alimin bu illər ərzində gərgin zəhmət və səyi ilə ərsəyə gələn "AMEA Naxçıvan Bölməsi İncəsənət, Dil və Ədəbiyyat İnstitutu", "Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsi Əlyazmalar Fondu", "Farsdilli əlyazmalar və əski çap kitabları kataloqu", "Türkdilli əlyazma və çap kitablarının kataloqu", "Ərəbdilli əlyazma və çap kitabları kataloqu" kitabları görülən səmərəli fəaliyyətin nəticəsi kimi nəşr olunaraq elmi ictimaiyyətə təqdim olunmuşdur. Alim çalışdığı qurumda gənc kadrların hazırlanmasında, ədəbiyyatşünaslıq və mətnşünaslıq istiqamətində gənc mütəxəssislərin yetişməsində də səmərəli fəaliyyət göstərir. 2013-2017-ci illər ərzində Azərbaycan Respublikası Ali Attestasiya Komissiyası tərəfindən Naxçıvan Dövlət Universiteti nəzdində təşkil olunan fəlsəfə doktorluğu üzrə Dissertasiya Şurasına üzv təyin edilən F.Xəlilovun iştirakı ilə bir sıra mövzularda tədqiqat işlərinin müdafiəsi uğurla həyata keçirilmişdir. Həmçinin onun elmi rəhbərliyi ilə çox sayda doktorant və dissertant öz elmi tədqiqatlarını məsuliyyətlə yerinə yetirməkdədir. Alimə elm sahəsində uğurlu fəaliyyətinə görə 2017-ci il 16 mart tarixində Azərbaycan ədəbiyyatı ixtisası üzrə dosent elmi adı verilmişdir. Alim eyni zamanda AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutununelmi nəşri olan "Əlyazmalar yanmır" və AMEA Naxçıvan Bölməsinin "Elmi Əsərlər" və "Axtarışlar" jurnallarının redaksiya heyətinin üzvüdür.

Elm fədaisi, qayğıkeş və səmimi insanF.Xəlilovu 70 illik yubileyi münasibətilə təbrik edir, ona can sağlığı, ədəbiyyatşünaslıq elminin inkişafı yolunda yeni-yeni uğurlar arzu edirik!



***Sahab*** Əliyeva
***AMEA Naxçıvan Bölməsi***
***Elmi Kitabxanasının direktoru***